AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI SLAVYAN UNİVERSİTETİ

SADİR MƏMMƏDOV

# XOCALI SOYQIRIMI



AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI SLAVYAN UNİVERSİTETİ

AZƏRBAYCANŞÜNASLIQ
TƏDRİS - MƏDƏNİYYƏT MƏRKƏZİ

SADİR MƏMMƏDOV

# XOCALI SOYQIRIMI

MƏCBURİ NÜSXƏ
№

BSU Beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsi Elmi Şurasının 02 aprel 2010-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol №36 )

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 90673

fond 2017

BAKI – 2010

**Tərtib edən:** hüquq elmləri namizədi, böyük elmi işçi
**Sadir Surxay oğlu Məmmədov**

**Redaktor:** filologiya elmləri namizədi, dosent
**Elşən Əlisa oğlu Şükürlü**

**Rəyçilər:** tarix elmləri namizədi, dosent
**Şirinbəy Hacıəli oğlu Əliyev**

fəlsəfə elmləri namizədi, dosent
**Qalib Nəcmi oğlu Barxalov**

**S.Məmmədov. Xocalı soyqırımı.** Bakı, "Kitab aləmi", 2010. – 16 s.

*"Xocalı soyqırımı" adlı bu kitabça gənclərimizin və xarici qonaqların bu barədə məlumatlandırılması məqsədilə tərtib olunmuşdur. Bu məlumat kitabçası Qarabağ döyüşlərində erməni təcavüzkarlarına qarşı vuruşmuş, ermənilərin azərbaycanlılara qarşı törətdikləri faciələri gözləri ilə görmüş polkovnik Sadir Məmmədov tərəfindən yazılmışdır. Dünya ictimaiyyətinə müraciətlə başlanan bu nəşrdə 26 fevral 1992-ci ildə ərazisi 930 km$^2$, 7000-dən artıq əhalisi olan Xocalının erməni faşistləri tərəfindən yerlə yeksan edilməsindən, dinc əhalinin vəhşicəsinə qətlə yetirilməsindən, istintaq komissiyasının tibbi ekspertizasının rəylərindən bəhs olunur. Eyni zamanda kitabçada vəhşicəsinə qətlə yetirilmiş insanların fotoşəkilləri də verilmişdir.*

$$М \frac{4702060000}{АБ\ 003035}\ 023\text{-}10$$

© Bakı Slavyan Universiteti "Kitab aləmi" Nəşriyyat-Poliqrafiya Mərkəzi – 2010

## XOCALI SOYQIRIMINI UNUTMA !

Hörmətli oxucu!

Milliyyətindən, dilindən, dini mənsubiyyətindən və əqidəsindən asılı olmayaraq Sizə müraciət edirəm !

Dünyada dəhşətli bir erməni xaosu dolaşmaqdadır. Dünyanın müxtəlif ölkələrində səpələnmiş halda yaşayan erməni kütləsi istənilən vaxt hər hansı millətə və xalqa qarşı terror və başqa vasitələrlə soyqırımlar törədə bilirlər. Dünyaya ağalıq etmək iddiasında olan ermənilər 200 ildən artıq bir zaman kəsiyində bu xülya ilə yaşayaraq ayrı-ayrı dövrlər ərzində saysız-hesabsız terrorlar və soyqırımlar törədərək məqsədlərinə nail olmağa çalışmışlar. Heç vaxt Cənubi Qafqazda dövləti və dövlətçiliyi olmayan, qaraçı həyat tərzi keçirən ermənilər himayədarlar taparaq onların sayəsində əvvəlcə Azərbaycan ərazisində məskunlaşmış, sonra isə Rusiya imperiyasının köməyi ilə xalqımızı soyqırıma məruz qoyaraq bizim dədə-baba torpaqlarımızda Ermənistan adlı respublika yaratmışlar. Lakin bütün bunlara baxmayaraq onlar yenə də öz mənfur niyyətlərindən əl çəkməyib ardıcıl şəkildə Azərbaycana təcavüz edib soyqırımlar törədərək torpaqlarımızı zəbt etmişlər. Azərbaycanlılara qarşı ermənilərin törətdikləri terror və soyqırımların biri də Azərbaycanın Xocalı şəhərində həyata keçirilmişdir.

İlk dəfə bu dəhşətli faciəyə düzgün siyasi-hüquqi qiymət verən görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyev olmuşdur. Bu amil özünü onun xalqa müraciətində daha aydın göstərir. Müraciətdə deyilir:

«Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Bu gün mən xalqımızın tarixində kədərli və faciəli bir səhifə olan Xocalı soyqırımı münasibətilə sizə müraciət edirəm. Bu qəddar və amansız soyqırımı aktı insanlığın tarixinə ən dəhşətli kütləvi terror hadisələrindən biri kimi daxil olmuşdur».

Həqiqətən də, tarixə nəzər salsaq görərik ki, Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir. Bir sıra dövlətlərin hakim dairələri tərəfindən himayə olunan bu mənfur siyasət Çar Rusiyası və Sovet hakimiyyəti dövründə ardıcıl davam etdirilmiş, SSRİ-nin süqutundan sonra xalqımızın doğma torpaqlarından qovulması, qaçqın və köçkünə çevrilməsi kütləvi qırğınlarla müşayiət olunmuşdur. Təcavüzkar erməni millətçilərinin və sərsəm «Böyük Ermənistan» ideoloqlarının etnik təmizləmə və soyqırımı siyasətinin nəticələrini bütövlükdə iki milyondan artıq azərbaycanlı müxtəlif vaxtlarda öz üzərində hiss etmişdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra erməni separatçılarının Dağlıq Qarabağda başladıqları təcavüzkar siyasət yüzlərlə kənd və qəsəbənin dağıdılması, on minlərlə günahsız insanın qanının axıdılması, yüz minlərlə insanın öz evindən, elindən didərgin salınması ilə nəticələnmişdir. Lakin Xocalı faciəsi bunların ən dəhşətlisi olmuşdur.

Müqayisəli təhlillər və real faktlar onu deməyə əsas verir ki, öz miqyasına və dəhşətlərinə görə dünya tarixində analoqu az olan Xocalı soyqırımını törətməklə erməni şovinistləri və ideoloqları çox iyrənc məqsədlər güdürdülər. Məqsəd Dağlıq Qarabağı və digər Azərbaycan torpaqlarını ələ keçirmək, xalqımızın müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizə əzmini qırmaq idi. Lakin mənfur düşmən öz niyyətlərinə çata bilmədi. Doğrudur, faciə bütün Azərbaycan xalqını sarsıtmış, Xocalı sakinlərinə sağalmaz yaralar, mənəvi zərbələr vurmuşdur. Lakin xocalılılar hətta amansız soyqırım günündə də özlərini əsl qəhrəman kimi aparmış, erməni-sovet hərbi birləşmələrinə qarşı qeyri-bərabər döyüşdə igidliklə vuruşmuş, düşmən qarşısında əyilməmiş, xalqımızın qəhrəmanlıq tarixinə şərəfli səhifələr yazmışlar.

Bu gün Azərbaycan hökuməti və xalqı qarşısında Xocalı soyqırımı və bütövlükdə ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi, bütün miqyası və

dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların əsl soyqırımı aktı kimi tanınmasına nail olmaq vəzifəsi durur.

Bu prosesdə 2009-cu ilin fevralında İslam Konfransı təşkilatının Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə fəaliyyətə başlamış “Xocalıya ədalət” kompaniyası ötən bir il ərzində uğurla davam etmiş, bu aksiyaya dünyanın əksər ölkələrində könüllülər qoşulmuşdur. Bu, Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur. Digər tərəfdən, faciənin əsl beynəlxalq hüquqi-siyasi qiymət alması, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılması bütövlükdə insanlığa qarşı yönəlmiş belə qəddar aktların gələcəkdə təkrarlanmaması üçün mühüm şərtdir.

Xocalı soyqırımının bəzi elementlərini məhkəmə araşdırmaları komissiyasının protokollarına əsasən nəzərinizə çatdırmağa çalışaq.

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə XX yüzilliyin II yarısında Azərbaycan türklərinin tarixində ən böyük faciələrdən biri – Xocalı qırğını baş verdi. Həmin gecə saat 23:00-da ermənilər üç istiqamətdən Xocalıya hücum etdi. Bu hücumda Ermənistan Respublikası Silahlı Qüvvələrinin tabeçiliyində olan silahlı qruplar, muzdlu əsgərlər, özünü Artsax Xalq Ordusu adlandıran Dağlıq Qarabağın erməni birləşmələri və 366-cı rus hərbi alayı iştirak etmişdi. Bu hücumda Xankəndi tərəfindən öndə olan 366-cı alayın hərbi texnikası, onların ardınca rus-erməni silahlı dəstələri, Əsgəran istiqamətindən isə mindən çox silahlı quldurlar daha çox fəallıq göstərirdilər. Əvvəlcə 366-cı alayın tanklarının köməyilə piyada qüvvələri şəhərə doğru irəliləyərək artilleriya atəşi ilə şəhərdə olan əsgər qərargahları və atəş mövqelərini məhv etmişdilər. Şəhərin müdafiəçiləri səhərə qədər düşmənə qarşı rəşadətlə döyüşmüşdülər. Onların bir neçəsi kamikadze şücaəti göstərərək bədənlərinə partlayıcı qurğu bağlayaraq özlərini düşmən texnikasına çırpmışdılar. Sonuncu müqavimət məntəqəsi səhər saat 7-də susdurulmuşdur. Atışma zamanı Xocalıda yüzlərlə adam

döyüşə-döyüşə həlak olmuşdu. Ağdama tərəf müxtəlif istiqamətlərdən hərəkət edən dinc əhali yolda erməni silahlı qüvvələri tərəfindən atəşə tutularaq girov götürülmüş, dəhşətli işgəncələrə məruz qalmışdır. Dinc sakinlərin qaça biləcəyi yolların qarşısında gizlənmiş erməni əsgərləri gəlib keçənləri qətlə yetirmişdilər. Ermənistan hərbi birləşmələri qətlə yetirdikləri insanların üzərində xüsusi əməliyyat apararaq onların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, adamları diri-diri torpağa basdırmış və ya yandırmışlar. Ermənilərin bu vəhşiliklərini əks etdirən çoxsaylı sənədlərdən bir neçəsini verməklə kifayətlənirik.

Tibbi ekspertizanın rəyçisi F.Əfəndiyevin təqdim etdiyi materiallar və faktlar istər-istəməz insanı dəhşətə gətirir. Ekspertizanın rəyində qeyd olunur ki, 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Xocalı şəhərində erməni quldurları tərəfindən tarixdə analoqu olmayan işgəncəli qətllər törədilmişdir. Daha sonra qətlə yetirilən şəxslərin xəsarətinin təhlili adlı bölmədə bildirilir: Xocalı hadisəsi zamanı bizim birliyin ekspertləri tərəfindən məhkəmə tibbi müayinədən 181 meyid keçirilmişdir. Həmin meyidlərdən 130 nəfəri kişi, 51 nəfəri isə qadındır. Müayinə olunan meyidlərdən 13 nəfəri azyaşlı uşaq olmuşdur. Xəsarətlərin əmələgəlmə mexanizminə görə bölünməsi aşağıdakı qaydada olmuşdur: a) qəlpə təsirindən – 20 nəfər; b) güllə təsirindən – 151 nəfər; c) küt alət təsirindən – 10 nəfər.

Xəsarətlər yerləşdiyi nahiyəyə görə aşağıdakı kimi olmuşdur: a) baş nahiyəsi – 40; b) döş qəfəsi – 74; c) qarın nahiyəsi – 17; d) ətrafları – 11.

Bununla yanaşı müayinə olunmuş meyidlərdən 3 nəfərində ətrafların donması, 33 nəfərində işgəncə əlamətləri, yəni başın dərisinin soyulması, qadınlarda döşlərin kəsilməsi, burun və qulaq qığırdaqlarının kəsilməsi, qadınların cinsiyyət üzvlərinə odlu silahdan atəş açılması əlamətləri aşkar edilmişdir. Eyni zamanda göz almalarının çıxarılması, dişlərin sındırılması, kişilərin cinsiyyət üzvlərinin kəsilməsi müşahidə olunmuşdur. Müayinə olunmuş 31

meyiddə isə konbinə olunmuş, yəni bədənin müxtəlif nahiyələrinin güllə yarası və küt alətlə, kəsici-deşici alətlə yetirilmiş xəsarətlər olmuşdur. Müayinə olunmuş meyidlərdən 13 nəfərində bədənin bütün səthini əhatə edən yanıq kömürləşmə aşkar edilmişdir. Eyni zamanda müayinə edilən meyidlərdən 10 nəfərində güllə yarası ilə birlikdə onların üzərindən hərbi texnikanın keçməsi əlaməti olmuşdur.

Bəşəri duyğulara malik olan insanlar! Sizə yaxşı bəllidir ki, dünyaya gələn hər bir kəsin yaşamağa haqqı vardır. Lakin erməni terrorçuları Allahın verdiyi bu haqqı onlardan almağa cəhd göstərərək azərbaycanlılara qarşı terroru davam etdirir və Xocalı şəhərinin minlərlə əhalisini vəhşicəsinə qətlə yetirdikləri kimi bu gün də həmin bəşəriyyət əleyhinə cinayət əməllərini davam etdirirlər. Həmin cinayətkar əməl sahibləri olan erməni kütləsi öz yalanlarını elə təbliğ edirlər ki, xarici ölkə vətəndaşları real vəziyyətdən xəbərdar olmadıqlarından çox zaman erməni iftiralarına inanmaq məcburiyyətində qalırlar. Bütün bunları nəzərə alaraq hazırda Azərbaycan dövlətinin dəstəyi ilə xaricdə yaşayan soydaşlarımız tərəfindən Xocalı faciəsi haqqında həqiqətlərin dünyaya çatdırılması, onun əsl soyqırımı aktı kimi tanıdılması istiqamətində mühüm addımlar atılır, kitablar yazılır, jurnalist tədqiqatları aparılır. Ayrı-ayrı ölkələrin parlamentlərində, beynəlxalq təşkilatlarda bu faciə müzakirəyə çıxarılır, dünya ictimaiyyətinin diqqəti bu məsələyə cəlb edilir və XX əsrin ən dəhşətli faciələrindən biri rəsmi sənədlərlə, real faktlarla dünya ictimaiyyətinə təqdim edilir.

Bu kədərli gündə, yəni 26 fevral 1992-ci il tarixində 7000-dən artıq əhalisi olan Xocalı şəhərinin xəritədən silinməsinə nail olan bu quldur dəstəsinin anti-bəşəri əməllərinə gəlin göz yummayaq. Əksinə, bütün dünya ictimaiyyəti ilə birlikdə bu cür soyqırım əməllərinə görə erməni vandallarının beynəlxalq hüquqa əsasən məhkəmə qarşısında cavab vermələrinə nail olmaqdan ötrü səylərimizi birləşdirək. Əgər belə olmazsa, təbii olaraq genlərində terror və soyqırım irsi xəstəliklərinin sinptomlarını daşıyan erməni kütləsi həmin bəd əməllərini yenə də davam etdirəcəklər. Hörmətli

dünya ictimaiyyətinə üzümüzü tutub deyirik ki, belə bir həmrəylik yaranmasa, bir gün erməni terrorunun növbəti hədəfi sizin xalqlarınız ola bilər.

Bu gün 26 fevral 2010-cu il tarixdə soyqırım faciəsinin 18-ci ildönümündə Xocalı şəhidlərinin (ölənlərin 613-nün,yəni tanınmaz hala salınan meyitləri aşkar olunmuş, 1000-nəfərdən artıq adam itkin və girov düşmüşdür ki, onlar da ölmüş hesab olunur) əziz xatirəsini bir daha dərin hüznlə yad edir, onlara Allahdan rəhmət diləyir, həlak olanların yaxınlarını, doğmalarını, bütün Azərbaycan xalqını bir daha əmin edirik ki, haqq-ədalət yerini tapacaq, Xocalı şəhidlərinin və qəhrəmanlarının uğrunda mübarizə apardığı ideyalar azad və müstəqil Azərbaycan Respublikasıda daim yaşayacaqdır.



***Xocalıda baş verən erməni terrorunun qurbanları***



*Xocalıda kimyəvi silahların tətbiqinə  məruz qalmış azərbaycanlılar*



*Ermәni terrorçuların amputasiya otağındakı әsir azәrbaycanlı balası*



*XOCALI: erməni terroruna məruz qalmış bir ailə*



***Erməni terrorçuları tərəfindən başı kəsilmiş azərbaycanlı***



***Gözü çıxarılmış azərbaycanlı***



*"ASALA" erməni terror təşkilatının törətdiyi cinayət*

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
90673

**SADİR MƏMMƏDOV**

# XOCALI SOYQIRIMI

Çapa imzalanıb: 16.06.10
Format: 60x84 1/16, Sifariş 023. Tiraj 100.

Azərbaycan Respublikası Təhsil Nazirliyi
Bakı Slavyan Universiteti
**«Kitab aləmi» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Ünvan: Bakı, S.Rüstəm 25.